**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**HƏBİB ŞİRİ AZƏR**

# QACARLAR DÖVRÜNDƏ İRAN-RUSİYA MÜHARİBƏLƏRİ (FARSDILLI QAYNAQLAR ƏSASINDA)

**İxtisas: 5503.02 – Vətən tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**Bakı – 2017**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
**AMEA-nın həqiqi üzvü, Y.M.Mahmudov**
**Əməkdar elm xadimi,**
**Dövlət Mükafatı Laureatı**

**Elmi məsləhətçi:**
**Tarix üzrə fəlsəfə doktoru H.N.Həsənov**

**Rəsmi opponentlər:**
**Tarix üzrə elmlər doktoru, professor T.T.Mustafazadə**
**Tarix üzrə fəlsəfə doktoru, dosent M.Q.Abdullayev**

**Aparıcı müəssisə:** **Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «_30___» ____06_____ 2017-ci il tarixli iclasında saat «___» da keçiriləcəkdir.

**Ünvan**: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «____» _________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru C.Ə.Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin əvvəllərində Azərbaycan ərazilərinin bölüşdürülməsi ilə nəticələnən İran-Rusiya müharibələrinin başlanma səbəbləri, Rusiya imperiyasının işğaldan sonra həyata keçirdiyi müstəmləkə siyasəti, ermənilərin və digər qeyri-müsəlman əhalinin Şimali Azərbaycan ərazilərinə köçürülməsi, etnik təmizləmə, deportasiya və soyqırımı siyasəti və digər elmi-siyasi tarixi problemlərinin müxtəlif mənbələr, xüsusilə də farsdilli mənbələr əsasında tədqiqi müasir Azərbaycan milli tarixşünaslığı üçün xüsusi əhəmiyyət kəsb edir. Ötən əsrin sonlarında Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu öndər Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının aparıcı alimləri ilə görüşündə XIX-XX əsrlər Azərbaycan tarixinin obyektiv şəkildə yenidən öyrənilməsi məsələsini mühüm bir vəzifə kimi qeyd edərək: "Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır.[1]

Məlumdur ki, XVIII əsrin sonu və XIX əsrin əvvəlində Cənubi Qafqazda baş vermiş bir sıra hərbi-siyasi proseslər, habelə çox geniş əraziləri əhatə etmiş Rusiya-Qacarlar İranı və Rusiya-Osmanlı müharibələri bütövlükdə bu bölgənin, o cümlədən Vətənimiz Azərbaycanın o dövrkü və sonrakı həyatının bütün sahələrində dərin izlər qoymuşdur.

Bu proseslərin mühüm tərkib hissəsini təşkil edən Rusiya-Qacarlar İranı müharibələrinin farsdilli mənbələr əsasında tədqiqi çox böyük elmi aktuallığa malik bir tədqiqat vəzifəsidir.

Məlumdur ki, İran şahzadəsi Abbas Mirzə uzun müddət o dövrün müasir silahları ilə silahlanmış Rusiya ordusunun və bəzi yerli hakimlərlə vuruşmağa başladı. 1804-1813-cü illər I Rusiya-Qacarlar İranı müharibəsi ərzində Fransa ilə müharibə apardığından bir neçə cəbhədə vuruşmaq məcburiyyətində qalmışdı. Digər bir tərəfdən Fransanın hərbi qüvvələri Avropa Rusiyasının mərkəzinədək irəlilədiyindən ruslar Böyük Britaniyanın səfiri Ser Qor Ouzlinin vasitəçiliyi ilə sülh müqaviləsi bağlamağa çalışırdılar. Amma Böyük Britaniya dövləti Fransanın Avropada işğalçılıq müharibələri təhlükəsinin get-gedə azaldığını bildiyindən Qacarlar İranına zorla qəbul etdirilən 1813-cü il Gülüstan sülh müqaviləsinə əsasən işğal olunmuş torpaqların Qacarlar geri qaytarılması haqqında vədlər almağa çalışırdı.

Təqdim olunan tədqiqat işi yazılarkən, müəllif o dövrdə bir çoxlarının qələmə aldıqları hadisələrin canlı şahidləri olmuş müəlliflərin əsərlərinə,

---

[1] Bax: Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Bakı: 1998, s.369.

İran tarixçilərin araşdırmalarına diqqətlə yanaşılmaqla istinad edilərək yazılmış, şahzadə Abbas Mirzənin çar Rusiyası ilə mübarizədəki uğursuzluqlarının həqiqi səbəbləri göstərilmiş, onun islahatlarının müvəffəqiyyət qazanmamasının səbəbləri şərh və izah edilmiş, daxili və xarici amillərin hər birinin nüfuz və təsiri göstərilmişdir.

Rusiya-Qacarlar İranı müharibələrinin baş verməsi şəraitini daha yaxşı təsəvvür etmək üçün o zaman İranın daxilində mövcud olan siyasi şəraiti də ətraflı şəkildə bilməliyik. Səfəvilər dövrünün sonundan etibarən İranda mövcud olmuş hərc-mərcliklərdən sonra Qacarlar sülaləsinin burada möhkəmlənməsi, nisbi siyasi sabitliyin tədricən bərqərar olması vəziyyəti tədricən dəyişərdi. Lakin təəssüflər olsun ki, çar Rusiyasının geniş işğalçılıq planları, yenicə hakimiyyətə gəlmiş gənc Qacarlar sülaləsinin qeyri-real hərbi-siyasi neçə-neçə onilliklər boyu bölgəni müharibələr girdabından çıxmağa qoymadı.

1801-ci ildə Şərqi Gürcüstanın çar Rusiyası tərəfindən ilhaq olunması haqqında bəyannaməsinin verilməsi ilə Rusiyanın Cənubi Qafqazda öz geniş hərbi-siyasi və iqtisadi məqsədlərini reallaşdırmaları üçün əlverişli şərait yaranmış oldu. Məhz bu İran üçün böyük təhlükə yaratdı və Qacarlar İranı-Rusiya müharibələrinin başlanmasına səbəb oldu.

Bu iki dövlətin Qafqaza, habelə Cənubi Qafqaza, o cümlədən Azərbaycana yiyələnmək uğrunda apardıqları qanlı müharibələr Azərbaycana son dərəcə ağır zərbələr vurdu.

Bu müharibələrin indiyədək elmi dövriyyəyə cəlb olunmuş və ya çox zəif cəlb olunmuş farsdilli mənbələr əsasında araşdırılması, bir çox qaranlıq mənbələrin üzərinə işıq salmağa, sovet tarixşünaslığı tərəfindən bünövrəsi qoyulmuş birtərəfli şərh, tədqiq və təfsiri aradan qaldırılmasına imkan verdiyindən çox böyük elmi, nəzəri və mənəvi əhəmiyyətə malik olan aktual elmi vəzifədir.

**Tədqiqatın xronoloji çərçivəsi** Azərbaycan milli tarixində çox mühüm hadisələrin baş verdiyi, torpaqlarımızın şimal ərazilərinin çar Rusiyası tərəfindən işğal edildiyi, ölkəmizin qanlı müharibələr meydanına çevrildiyi XIX əsrin birinci otuzilliyini əhatə edir. XIX əsrin birinci otuzilliyini əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Məlumdur ki, XIX əsrin ilk otuzilliyində Qacarlar İranı, vəliəhd Abbas Mirzə Rusiya ilə iki müharibədə məğlub oldu. Bu müharibələrin acı nəticələri ölkənin həyatının bütün sahələrinə ağır təsir göstərmiş, səltənətin böyük itkilərə məruz qalması ölkənin geridə qalmasının əsas səbəblərindən biri olmuşdur.[1] Tarixdə «İran Napoleon»u

[1] Tağızadə Seyid Həsən. İran-Rusiya əlaqələri // Kavə jurnalı №1, 5-ci il, Berlin, 1338-ci il (1959-cu il)

kimi yadda qalmış Abbas Mirzə hələ müharibələrin gedişində Avropa ölkələrinin inkişaf və tərəqqisinin sirlərini əldə etməklə ölkənin surətli inkişafına nail olmaq məqsədi ilə islahatlar aparmaqla ölkənin iqtisadi, hərbi problemlərini həll etmək qərarına gəlmişdi. Lakin Qacarlar İranının geniş əhali kütlələri içərisində lazımı zehni, ictimai-mənəvi zəminin olmaması, cəhalət və məlumatsızlıqla yanaşı milli qüdrət sahiblərinin müqaviməti, onun – Abbas Mirzənin əleyhinə müxtəlif dairələrdə törədilən maneə, həmçinin Avropanın hərbi-siyasi güc sahiblərinin aşkar və gizli maneələri onun islahatları qarşısında ciddi problemlər yaratmış, onun məqsədlərinə çatması yolunda keçilməz sipər çəkmişdir.

Qeyd etmək lazımdır ki, adından da göründüyü kimi dissertasiya işi ilk növbədə daha çox farsdilli tarixi mənbələrdən istifadə olunmaqla yazılmışdır. Burada əsas şərt o dövrün şəraitini daha çox əks etdirən mənbələrə üstünlük verilmişdir. Burada məxsusi olaraq bəzi şərq-müsəlman salnaməçilik məktəblərinə xas olan nağılvari və romanvari mənbələrdən istifadə edilməsindən imtina edilmişdir. Eyni zamanda o dövrün xüsusi şəraitini əks etdirən tarixi ədəbiyyat ətraflı şəkildə öyrənilmiş və lazımi səviyyədə onlardan faydalanılmışdır. Əlavə olaraq elə ədəbiyyatdan istifadə olunmuşdur ki, onların hər birinin müəllifi o dövrün şəraitinə fərqli nəzərlərlə baxmışlar.

«Məasserə əl-Soltaniyyə»[1] adlı əsər bunların içərisində xüsusilə fərqlənir. Bu əsərin xüsusi dəyəri ondan ibarətdir ki, o, Qacarlar sarayının münşisi Əbdürrəzaq Dünbuli tərəfindən yazılmışdır və onun müəllifi tarixi incəliklər haqqında kifayət dərəcədə məlumatlı bir adam olmuşdur. Müəllif Abbas Mirzənin yanında fəaliyyət göstərmiş və tarixi hadisələri dəqiqliklə qeydə almışdır. Əbdürrəzzaq Dünbuli tarixi hadisələrə o qədər diqqətlə yanaşıb, onları o qədər təfərrüatla təsvir etmişdir ki, başqa tarixi kitablarda orada olan məlumatları əldə etmək mümkün deyildir. Onun kitabındakı hadisə təfsilatı, bu cür diqqət və obyektivliyi başqa mənbələrdə müşahidə etmək olmur.

Əsərin çətin mətni və süls xətti ilə (qədim ərəb xətt növü – H.Ş.) yazılması o dövrə məxsus olan bir metod idi. Onun mətni bəzən oxucu üçün nə qədər çətin olsa da onun müsbət cəhətləri də çoxdur. O zamanın rəsmi tanınan hökumət dairələrinin nöqsan-larının açıq-açıqdan tənqid olunması, bir saray katibinin dilindən hakim dairələrin tənqid edilməsi xüsusi bir haldır.

Həmin dövrü əks etdirən mənbə tipli digər əsərlərdən birinin müəllifi Mirzə Məhəmməd Sadiq Məruz Münşi Qaimməqam Fərahani Abbas Mir-

---

[1] Mətbun Donbəli Əbdülrrəzzaq. Məaserə Soltaniyyə. Sədri Əfşarın tədqiqi, İbn Sina nəşriyyatı, Tehran, 1351-ci il (1972-ci il)

zənin yaxın adamlarından olmuş və haqqında danışdığımız müharibə hadisələrinin şahidi olmuşdur. Fərahaninin yazdığı kitab İran-Rusiya müharibələrinin tarixindən bəhs edən əsas və mötəbər kitablardan sayılır[1].

Bu kitabın yazılması xüsusiyyəti bu kitabdakı məlumatların mötəbərliyinə və orijinallığına bir sübutdur. Aşkar olaraq tarixi hadisələrin xronikal–ardıcıl şəkildə o zamankı şəraitdə yazılması o qədər də münasib deyildi. Müəllif əvvəldən Mirzə Əbülhüseyn xan Şirazinin münşisi olduğuna baxmayaraq kitabın müxtəlif hissələrində həmin şəxsi xain bir dövlət xadimi, nalayiq və xaricilərin agenti kimi göstərmiş, onun xəyanətlərini ört – basdır etməmişdir.

Həmin müəllif o dövrün məşhur ülәmalarından birinin dili ilə İranın qonşu ölkələr ilə siyasi əlaqələri haqqında ətraflı şəkildə yazır. Yazırdı ki, İranı Rusiya hədələyir, qorxudur, fransızlar rişxənd edirdilər, ingilislər isə bu bölgəyə münasibətdə heç zaman ədalətli siyasət yürütməmişdilər.

Digər mənbələrdə və Qacarlar İranı tarixinin bu dövrünü əks etdirən bütöv bir sıra digər əsərlərdə elə bir tarixçi və müəllif tapılmaz ki, Qərb ölkələrinin siyasətini bu cür aşkar şəkildə bəyan etsin, onların istilaçı və istismarçı mahiyyətini açıqlasın, xalqın müqavimətini, cihadını bu cür bəyan etsin. Bu məlumatlar müəllifin günün siyasətini, hökumət və dövlət aparatını tanıması, habelə xalq kütlələri ilə əlaqələri hesabına toplanılıb ərsəyə gətirilmişdir. Digər bir tərəfdən Abbas Mirzə və Qaimməqam ona inanırdılar və bəzən də ona çox mühüm tapşırıqlar verirdilər.

Bu kitabda müəllif həmçinin çar Rusiyanın tarixinə qısa ekskurs edir, Rusiya-İran əlaqələrini və onun ardınca Rusiya-İran arasında müharibənin başlanmasına səbəb olan məsələləri araşdırır və bütün bəhs olunan məsələlərdə oxucunu hadisələrin axarına salmağa çalışır.

Bu dövrün tarixinə həsr edilmiş maraqlı əsərlərdən biri də «Nasix ət-Təvarix» adlı kitabdır.[2] «Nasix ət-Təvarix»in əsas müəllifi Mirzə Məhəmmədtağı Sepehr olmuşdur. Lakin onun müəyyən son hissəsini oğlu yazmışdır. Əldə etdiyimiz məlumata əsasən (Məhəmmədtağı Sepehr 1337-ci il-m. 1810-cu il. s.58) müəllif əvvəlcə Qacarlar dövrünün tarixinə dair iki kitab yazmış, «Nasix ət-Təvarix» kitabında isə hadisələri ayrıca vermişdir. Belə ki, Qacarlar dövrünün əvvəlindən Fətəli şaha qədər olan dövr bir cilddə, Məhəmməd şahdan Nəsirəddin şaha qədər olan dövr isə ikinci cilddə verilmişdir. Bu kitabın mövzusu Qacarların hakimiyyət dövrünün başlanması,

[1] Mətbun Donbəli Əbdülrrəzzaq. Məaserə Soltaniyyə. Sədri Əfşarın tədqiqi, İbn Sina nəşriyyatı, Tehran, 1351-ci il (1972-ci il).

[2] Sepehr Məhəmməd Tağı, Nasex ət Təvarix Cahangir Qaim Məqami. Əmiri Kəbir nəşriyyatı, Tehran, 1337-ci il (1958 ci il).

xüsusi ilə İran-Rusiya müharibəsindən ibarətdir. Müəllif o zaman hadisələrini ardıcıl olaraq, ilbəil, müfəssəl şəkildə təsvir etmişdir. Burada vəliəhd Abbas Mirzəni Azərbaycana hakim təyin olunmasından, onun idarəçiliyindən (h. 1219-cu il; m.1805-ci il), o dövrün gərginliyindən və Qriboyedovun öldürülməsinə qədər olan dövrdə də çar Rusiyasının təcavüz etməsi qorxusundan bəhs edilir. Müəllif bu hadisələri 200 səhifədə geniş şəkildə əks etdirmişdir. Müəllifin kitabdakı yazı üslubu İran-Rusiya müharibələri dövrü Qacar hökumət aparatının mövqe və istəklərinə münasib olmuşdur. Bu, şəraitin siyasi konyunkturasına əməl etmək o dövr qələm sahiblərinin demək olar ki, əksəriyyətinə məxsus bir xüsusiyyət idi. Bütün bunlara baxmayaraq, bu kitabda bəzi ibrətamiz məqamlara rast gəlmək mümkündür.

Lakin bu əsərdə də orta əsr salnamələrinə məxsus olan nağılvarı şərh üslubu özünü güclü şəkildə göstərir. Amma burada müəllifin hadisələr barəsində şəxsi mövqeyi, baxışları digər kitab müəlliflərinə nisbətən zəifdir. Həqiqətdə isə, demək olar ki, bu kitab «Məasir əl-Soltaniyyə» kitabı ilə «Ahəngi Soruş» əsəri[1] arasında bir aralıq mövqe tutur. Burada müəllif nə hadisələri yazan saray mirzəsi, nə də hadisələri gizli şəkildə yazan bir müəllif olmuşdur. Əksinə o, müəyyən baxımdan bitərəf bir mövqe tutmuşdur. Buna görə də demək olar ki, bu iş daha çox tədqiqat xarakteri daşımış, onun müəllifi isə ixtiyarında olan sənədlərdən, mənbələrdən daha geniş istifadə etmişdir.

Qacarlar xanədanın üzvlərindən biri olmuş şahzadə İzədullah Soltan Əhməd Mirzə tərəfindən yazılmış «Tarix-İzədi» (İzədi tarixi)[2] mərhum ustad, doktor Əbdülhüseyn Nəvainin əlavələri və izahatları ilə 1355-ci ildə (1956-cı ildə) çap olunmuşdur. Bu kitab Ağa Məhəmməd şah Qacar, Fətəli şah və vəliəhd Abbas Mirzə haqqında çox dəyərli bir kitabdır. Bu kitabın əhəmiyyəti ondan ibarətdir ki, müəllif öz obyektiv fikirlərini ifadə edir və eyni zamanda imkan daxilində hadisələrin nəql olunmasında obyektiv və bitərəf mövqe tutur.

«Xavəri» təxəllüslü Mirzə Əfzəl Şirazi tərəfindən yazılmış «Tarixi Zülqərneyn» əsəri[3] Nasir Əfşar tərəfindən təshih (redaktə olunmuş) olunmuş, İslam Şura məclisinin sənədlər tarixi və muzey kitabxanası tərəfindən

---

[1] Ahənge Soruş. İran-Rusiya müharibələrinin tarixi. Mirzə Məhəmmədsadıq Vageye Negarın qeydləri. Müharibə başlanandan Türkmənçay müqaviləsinədək. Toplayanı Hüseyn Azər, Redaktoru Əmir Hüşəng Azərin təshihi. - Tehran: 1369 (1990).

[2] Bəyani Xanbaba. Napoleonun İranda siyasəti, Çate-ketab nəşriyyatı, Tehran: 1318-ci il (1939-cu il).

[3] Əfşar Nasir Mirzə Əfzəl Şirazi. Tarixi Zülqərneyn. Tehran: 1378.

1380-cil ildə (2001-ci il) çap olunmuşdur.

Birinci cilddə 1312-ci ildən 1342-ci ilədək (1792-1828-ci illər) baş vermiş hadisələr əks olunmuşdur və o, bu cildin adını «Xaqan» qoymuşdur.

Müəllif kitabın ikinci cildini «Rusiyalı sahibkaran» adlandırmışdır. Bu cild 1342-1350-ci illərin (1828-1836-cı illərin) hadisələrini əks etdirir. Məhəmməd şah Qacarın hakimiyyəti illəri də buraya əlavə olunmuşdur. Bu kitab da hadisələr uzun-uzadı şəkildə təsvir olunur. Bu kitab həmin dövr haqqında böyük əhəmiyyətə malik hadisələrə dair qiymətli məlumatlarla zəngindir.

Hidayət Rzaqulu xanın «Rövzət ül-Səfa» adlı əsəri[1] ümumi tarixə həsr olunmuş kitabdır. Müəllif hadisələri salnamə şəklində əks etdirərək əsas siyasi hadisələrə orijinal şərh verir. Burada Qacar şahları, hakimləri haqqında uzun-uzadı, dolaşıq nağıllara xeyli yer ayrılmışdır. Bu kitabın ən mühüm nöqsanlarından biri tarixlərin qeyd olunmaması, ölüm tarixləri və müharibə əsirlərinin sayına lazımı diqqət yetirilməməsidir. Burada Qacar hakimlərinin xeyrinə uydurma məlumatlar da verilmişdir. Əlbəttə, bunlarla yanaşı burada qiymətli məlumatlar da özünə yer tapmışdır. Onları başqa mənbələrin hadisələri ilə tutuşdurub müəyyən nəticələrə gəlmək olar.

Müəllifi Abbas Mirzənin oğlu Cahangir Mirzə olan «Yeni tarix»[2] əsərində müəllifin özünün dediyi kimi, hadisələri ibrətamiz şəkildə salnamə yazmaq üslubu ilə «Məasiri əl-Soltaniyyə» kitabına oxşar şəkildə işıqlandırılmış, Dünbulinin işini davam etdirmiş, hadisələrin tarixini 1342-ci ildən (1828-ci ildən) öz dövrünədək gətirib çatdırmışdır. O, İkinci İran-Rusiya müharibəsi zamanı atası ilə birlikdə olduğundan hadisələr barəsində çox ətraflı, dəqiq məlumatlar vermişdir. Bütün bunlarla yanaşı o, Qacar sülaləsinə mənsub olduğu üçün həmişə Qacar hakimlərinin Məhəmməd şahın buraxdığı səhvləri, günahları onların yaxınlarının, ordu başçılarının, müşavirlərin, nazirlərin, xüsusi ilə Mirzə Əbülqasım Qaimməqamın və Asəf əd-Dövlənin boynuna yıxmağa çalışmışdır. Ümumiyyətlə, demək olar ki, əsərdə bitərəflilik yoxdur, çoxlu nöqsanlar gözə dəyir. Burada rəsmi Qacar hökumətinin tərəfi saxlanılır, qeyri-obyektivlik müşahidə olunur. Bununla belə bütün tədqiqatçılar İran-Rusiya müharibəsinin ikinci dövrünü, Məhəmməd şahın hakimiyyətinin ilk illərinin tarixi hadisələrini (242-1267-ci illər / 1828-1853-cü illər) tədqiq edərkən bu kitab nəzərə almaya bilməzlər.

Müəllifi Fətəli şahın milliyətcə erməni həyat yoldaşından olan 54-cü övladı - Etimad əs-Səltənə Əliqulu Mirzə (1235-ci ildə -1821-ci il, Tehranda

[1] Nəfisi Səid, İranın ictimai-siyasi tarixi, 2 cilddə, Bonqat nəşriyyatı, 1364-cü il (1985-ci il), I c.

[2] Tarixi nou. Cahangir Mirzənin tədqiqi.

anadan olmuşdur) olan «Əfsir ət-Təvarix» əsərinin[1] yazılmasına 1253-cü ildə başlanılmış (1839-cu il) və bu əsər 1258-ci ildə (1844-cü il) başa çatdırılmışdır. Onun müəllifi yeyib-içməyi və həyatını şad keçirməyə meylli olmuşdur. O, həyatının çoxunu şeirə, şairliyə və mey içməyə sərf etmişdir.

«Əfsir ət-Təvarix» kitabı tamamilə İran Qacarlar hökumətinin siyasi mənafeləri mövqeyindən yazılmışdır. Müəllif Abbas Mirzənin məğlub olmasını əsla qəbul etmir. O, öz qacarpərəstliyində o yerə gəlib çıxmışdı ki, guya ki, Paskeviçin özünün Abbas Mirzədən sülh bağlamağı xahiş etməsini vurğulamışdır. Müəllif tarixlərin və əsərdə olan rəqəmlərin dəqiqliyinə diqqət yetirmirdi. Kitab artıq sözlərlə, ayələrlə, şeirlərlə, misallarla o qədər doludur ki, istənilən oxucu üçün çox yorucu və üzücüdür.

«Abbas Mirzənin əhvalatları» adlı kitabın[2] müəllifi Əbülqasim Laçını Abbas Mirzənin həyatından, onun başına gələn əhvalatlardan qısa şəkildə danışaraq onun çar Rusiyası və Osmanlı ilə müharibələrini təsvir etmişdir. Müəllifin başqa xüsusi işi budur ki, o, Naib əs-Səltənənin Mahmud Mirzəyə Əbülqasım Qaim-Məqam Laçın xana, Firidun Mirzəyə, oğlu Manuçöhr xana, Paskeviçin yanına sülh xahişi ilə göndərdiyi elçilərə və başqalarına göndərdiyi məktubların əksəriyyətinin mətnlərini verməyə çalışmışdır.

Problemin araşdırılmasında bizə İran tarixçilərinin çoxsaylı tədqiqatları, habelə İ.H.Əliyev, M.Ə.İsmayılov, Y.M.Mahmudov, S.S.Əliyarlı və başqalarının redaktorluğu altında çıxmış ümumiləşdirici əsərlər böyük rol oynamışdır.[3]

Həmin əsərlər bizə digər, əsasən də rusdilli qaynaqlar əsasında bizi maraqlandıran hadisələrin təsvirini təsəvvür etmək imkanı yaradılmışdır.

**Tədqiqatın mənbə bazası.** Bizi maraqlandıran problemin araşdırılması baxımından müxtəlif məktublar, Qacarlar sülaləsindən olan şahlar və şahzadələrinin Qafqaz hakimlərinə göndərdikləri fərmanlar məcmuəsi çox qiymətlidir. Bu kitabın ingiliscə adı «The collection of Persion Firmans of Tbilisi»dir. Bu, həqiqətən elə bir məcmuədir ki, İran şahlarının, şahzadələrinin Qafqaz hökmdarlarına, xanlara, əyanlara İsmayıl və Maquli vasitəsi ilə göndərilmiş, Gürcüstanın Mərkəz Tarix Arxivindən götürülmüş və rus dilinə tərcüməsi ilə birlikdə çap olunmuş çox qiymətli ilkin qaynaqların zəngin toplusudur. 1212-1249-cu h.q illər (1798-1834-cü illər) ərzində Fətəli şahdan və Abbas Mirzədən Qafqaz xanlarına, əyalət başçılarına və tayfalarına 111 məktub göndərilmişdir. Bu məktublarda İran hərbi qüvvələri

[1] Etimad əl-Səltənə Əliqulu Mirzə. Əfsir əl-Təvarix. 1844.
[2] Qaim Məqam Fərahani, Əbülqasım Qaim Məqamın mənşələri, Cahangir Qaim Məqamın tədqiqi. İbn Sina nəşriyyatı, Tehran: 1337-ci il (1958-ci il).
[3] Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: 2005.

ilə əməkdaşlıq etmək və rus əsgərlərinə qarşı düşmən mövqe tutmaq tövsiyə təkid olunurdu. Şah və Naib əs-Səltənə bu şəxslərə müxtəlif şeylər vəd edirdilər.

Həmçinin qəbilə-tayfa başçılarına, ağsaqqallarına ruslarla vuruşduqları və əhalinin Abbas Mirzənin təyin etdiyi hakimlərə itaət etdikləri üçün onlara təşəkkür elan olunurdu.

Kitabın başqa bir hissəsində Naib əs-Səltənənin rəhbərliyi altında olan adamlara göndərilmiş əmrlər yer tapmışdır ki, bu əmrlərdə də Rusiya-İran müharibəsində qacarlara əməkdaşlıq edən tayfa başçılarından, xərac alınmaması əksinə onlara daimi güzəştlər verilməsə hökm olunurdu. Bu sənədlər ikicildli məcmuənin 330-443-cü səhifələrində toplanılmışdır.

Bizi maraqlandıran dövr üzrə ən qiymətli qaynaqlardan biri də «Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı Aktlar». Bu 12 cildlik qiymətli topluda farsdilli sənədlər də az deyildir.

Bizi maraqlandıran tarixi problemin bir sıra məqamlarını araşdırmaq baxımından o dövrdə Qacarlar İranı dövründə verilmiş müxtəlif cihad hökmləri, aliməqam şiə ruhanilərinin fitvaları da maraqlı qaynaq rolunu oynaya bilər. O dövrdə Qacarlar dövlətində şiəliyin təyinedici rolu bütün elm və kitab əhlinə məlumdur. Məsuliyyəti böyük şiə mərcələrinin üzərinə düşən o həssas dövr xeyli mürəkkəbdir. Bu tarixi dövrün hadisələrinin tədqiqi və araşdırması bizi elə dəyərlərlə tanış edir ki, o bizim həyatımızın ayrılmaz bir hissəsidir və bu bütün İran tarixinə hakimdir. O günlərdə Qacarlar dövləti ictimaiyyətinin əhval-ruhiyyəsinə uyğun olaraq fitvalar verilir və buralardan da çox ciddi proseslər başlayırdı.

Şiə təriqətinin siyasi rolu və İran tarixinin bütün dövrlərində üləmalarının əksəriyyətinin dövlətin həyatında yaxından iştirak etməsi, onların fəaliyyətinin ciddi, zəif və ya miyanə mövqe tutması hamıya məlumdur. Amma üləmalar Rusiya-İran müharibələrində, xüsusilə onun ikinci dövründə çox mühüm mövqeyə malik olmuşlar. Belə ki, bəzi tarixçilər məğlubiyyətin və ərazilərin işğal olunması səbəblərini onlara şamil edirlər. Şübhəsiz, bu bir növ nankorluqdur. Unutmamalıyıq ki, tarixi hadisələr, ictimai hadisələr heç də ancaq bir səbəbdən yaranmır.

Əlbəttə, bu məsələ də qeyd olunmalıdır ki, o dövrün ilk cihad fitvasının elan olunması ideyası Abbas Mirzə və Qaimməqam tərəfindən irəli sürülmüşdür.

Belə nəzərə çarpır ki, yuxarıdakı icmal şəklində bəhs olunan üç məhvərə diqqət yetirərək belə nəticə əldə etmək olar. Təqribən 25 il ərzində - yəni 1218-ci ildən 1243-cü ilədək (m. 1804-1828-ilədək) İran-Rusiya müharibələrinin başlanmasından ta Türkmənçay müqaviləsi bağlananadək İranın şiə

cəmiyyətinin bütün sahələrində bir növ müqavimət və təhrikedici bir əhval-ruhiyyə hakim idi. Sanki, cihadın «Ayıq ol!» sədaları Qacarların xəstə, cansız dövrünə səmadan nüfuz edirdi. Əfqanların dağıdıcı xarakterli hücumları, səfəvilərin süqutu, yarıməsrlik hərc-mərclik dövründən ondan sonra onu müəyyən tərzdə islah edir, irəli səsləyirdi.

Bu tədqiqat işində başqa farsdilli mənbələrdən də istifadə olunmuşdur. Onların ən əhəmiyyətlisi aşağıdakılardan ibarətdir.

Fars dilində olan əlyazmalar:

Mirzə Sadiq Vəqaye Negarın «Rotb əl-lisan» adlı əsəri h.q. XIII əsrin (XVIII əsrin sonu-XIX əsrin əvvəli) əvvəllərində yazılmışdır. Müəllif Qacarlar nəslinin əsl-nəsəblərini işıqlandırır. Sonra onların zühur etməsini, ölkə ərazisində hakimiyyəti ələ keçirmək üçün Səfəvilər dövründə səylərini, ta Ağa Məhəmməd xan Qacar tərəfindən Qacarlar hakimiyyətinin təsis olunmasını əsas məsələ olaraq ortaya qoymuş və Fətəli şahın hakimiyyətinin birinci ilində baş vermiş hadisələri ətraflı şərh etmişdir. Burada həmçinin Abbas Mirzənin vəliəhdliyi dövrü hakimiyyəti və Birinci İran-Rusiya müharibəsinin hadisələri şərh olunur. Bu kitab SSR Milli kitabxanasının Əlyazmalar Fondunda F144 şifrəsi altında saxlanılır.

Mövcud tədqiqat işinin ən əsas məziyyətləri bundan ibarətdir ki, yuxarıda haqqında danışılan ədəbiyyat və qaynaqlara söykənilərək ölkənin inkişafının müəyyən dövrünə, o cümlədən də Abbas Mirzənin bu dövrdəki roluna aydınlıq gətiriləcəkdir. Təbiidir ki, əgər İranın siyasi-ictimai inkişafı onun tarixi keçmişinə diqqət yetirilmədən araşdırılarsa onun öyrənilməsi mütləq birtərəfli olacaqdır. Bu dissertasiya mövzusunun işinin tədqiq olunması ilə İranın ictimai-siyasi inkişafının tarixi bazası bir qədər də aydınlaşacaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövcud əsərin əsas elmi məqsədi fars dilli qaynaqlar və ədəbiyyat əsasında XIX əsrin ilk otuzilliyində baş vermiş Rusiya-İran müharibələrinin tarixinin araşdırmaqdır. Bu əsas elmi məqsədə çatmaq üçün dissertasiyada aşağıdakı konkret elmi vəzifələr müəyyənləşdirilmiş və onların həllinə cəhd göstərilmişdir:

- Qacarlar İranı ilə Rusiya arasında müharibənin başlanmasına səbəb olmuş amillərin araşdırılması;
- Başqa ölkələrin diplomatiyasının bu müharibənin başlanmasında rolunun tədqiq edilməsi;
- Rusiyaçılıq ideyalarının müharibədə hansı rola malik olmasının işıqlandırılması;
- Abbas Mirzənin Rusiya – İran müharibələrində rolunun qiymətləndirilməsi;
- Onun siyasi, hərbi sahələrdə imkanları, qarşısına çıxmış maneələri və

problemlərin dəyərləndirilməsi;
- Qacarlar İranı və romanovlar Rusiyası üçün müharibələrin təsirləri və nəticələrinin qiymətləndirilməsi;
- Çar Rusiyasının Böyük Britaniya, Fransa və Osmanlı imperiyaları ilə gizli rəqabəti və əməkdaşlığının adı çəkilən müharibələrin taleyində və Abbas Mirzənin islahatlarında nə dərəcədə rol oynadığını araşdırılması;
- Müharibənin Qacarlar İranı dövləti və Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi durumunu və tarixi inkişaf perspektivlərinin vurduğu ağır zərbələri, törətdiyi fəsadlı nəticələrin qiymətləndirilməsi;

Tədqiqatın mövzusunun bəzi məqam və süjetlərinə ayrı-ayrı məqalələr, dissertasiyalar, monoqrafiyalar və s.-də toxunulmuşdur. Amma bu qaynaqlar əsasında bizim nəzərdə tutduğumuz səpkidə indiyədək əsaslı elmi iş yazılmamışdır.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın yazılması zamanı biz tarixi həqiqətləri olduğu kimi, bəzən düzəlişsiz, müəyyən siyasi qrup və qüvvələrin subyektiv mövqelərini nəzərə almadan əks etdirmək prinsipi rəhbər tutulmuşdur. Tarixi obyektlərin, müxtəlif mövqe və qaynaqların tutuşdurulması yolu ilə tarixi həqiqətlərin üzə çıxarılması bütün araşdırmalar boyu bəzən əsas qayə olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın əsas, başlıca elmi yeniliyi ilk növbədə ondan ibarətdir ki, bu əsər Azərbaycan milli tarixşünaslığında ilk tarixi araşdırmadır ki, XIX əsrin ilk sülsünün çar Rusiyası-Qacarlar İranı münasibətlərinin tarixini İran tarixşünaslığının elmi «məhsulları», farsdilli qaynaqları əsasında əks etdirir.

Dissertasiyada həmçinin:
- Qacarlar İranı-çar Rusiya münasibətlərinin səbəbləri işıqlandırılmışdır;
- Digər ölkələri xarici siyasətinin bu hərbə qarşıdurmalardakı rolu əks etdirilmiş;
- Rusiyaçılıq kimi mürtəce ideologiyanın mahiyyətinin açılmasına cəhd göstərilmişdir;
- Abbas Mirzə şəxsiyyətinə layiq olduğu qiymət verilmişdir;
- Müharibələrin Azərbaycan xalqı, Qacarlar səltənəti, Rusiya imperiyası üçün başlıca sosial-iqtisadi, hərbi-siyasi və mənəvi-ideoloji nəticələri təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Araşdırmanın materialları, ümumiləşdirilmələri və başlıca elmi nəticələri XIX əsrin ilk sülsündə baş vermiş Rusiya-Qacar müharibələrinin tarixinə yeni bir nəzər salmaq imkanı yaradır. Eyni zamanda həmin nəticələrdən Azərbaycanın, İranın, Ön Asiya-

nın və Rusiyanın tarixi üzrə ümumiləşdirici əsərlərin yazılmasında, ali və orta ixtisas məktəbləri üçün dərsliklər və dərs vəsaitlərinin hazırlanmasında, müxtəlif məktəblərdə tarix üzrə müxtəlif kursların tədrisində istifadə edilə bilər.

Dissertasiya araşdırması habelə bütün obyektiv tarixsevərlər üçün də çox faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Əsər AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsində yerinə yetirilmiş, həmin şöbənin iclaslarında iki dəfə müzakirə olunmuş, dissertasiyanın nəticələri müəllifin mötəbər elmi nəşrlərdə işıq üzü görmüş məqalələrində nəşr edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi «Giriş», 3 fəsil, «Nəticə» və «İstifadə edilmiş qaynaqlar və ədəbiyyatın siyahısı»ndan ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, mövzunun öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin I fəsli **"İran-Rusiya müharibələrinin birinci dövrü"** adlanır və dörd yarımfəsildən ibarətdir. Dissertasiyanın bu fəsli çox mühüm məsələlərdən bəhs edir. Bu fəsildə iki ölkənin – Qacarlar səltənəti və çar Rusiyasının hərbi qüvvələrinin imkanlarından, onların vəziyyətindən, o dövr ərəfəsində bu iki ölkənin sərhədlərində hakim olmuş şəraitdən bəhs edilir. Fəslin ilk yarımfəsli Rusiya-Qacar müharibələrinin səbəblərinə həsr olunmuşdur. Məlumdur ki, bu işğalçılıq müharibəsinin birincisi qəsbkar Gülüstan sülh müqaviləsinin bağlanmasına gətirib çıxarmışdır. Fəslin II və III yarımfəsillərində 1804-1813-cü illər müharibəsinin başlanğıc mərhələsindən və əsas hərbi əməliyyatlardan bəhs edir. İşğal olunmuş ərazilərin əhalisi bəzi hallarda dini rus işğalçıları qarşısında fədakarcasına vuruşmuş və onları geri çəkilməyə məcbur etmişdilər. Bu fəsildə tarixi məxəzlərə və digər materiallara istinad edilərək ermənilərin xəyanəti və rusların bəzi Azərbaycan ərazilərini işğal etməsi də araşdırılmışdır[1]. Bu araşdırmalar demək olar ki, büsbütün farsdilli qaynaqlar və ədəbiyyatın məlumatlarına söy-

[1] Bax: Bina Əliəkbər. İranın siyasi və diplomatiya tarixi I cild, Daneşgah nəşriyyatı. Tehran: 1344-cü il (1965-ci il).

kənir. Təəssüflər olsun ki, bu məsələ hələ də (müəllifə məlum olmayan səbəblər üzündən) indiyədək tarix tədqiqatçıları tərəfindən və xüsusi ilə İranın bu dövrünü tədqiq etmiş tarixçilər tərəfindən araşdırılmamışdır. Qeyd edilir ki, çar Rusiyasının Azərbaycana və İrana daxil olmasının tarixi çox qədimdir. Rusiya tacirləri İrana daxil olan zaman onların mallarının quldurlar tərəfindən talanmasını bəhanə gətirilmiş və bu bəhanələrə Rusiya dövləti Səfəvilər dövlətindən təminat istəmiş və onun ardınca bu regiona daxil olmuşdular. Çar Rusiyası əvvəlcə dağıstanlılardan təhlükəsizlik qəraməti (təminatı) istəmişdilər və qaneedici cavab almadıqları üçün dəniz yolu və quru yolla bu regionu işğal etməyə başlamışdılar. Onlar hələ 1556-cı ildə Həştərxanı tutmuş, 1722-ci ildə Dərbəndi işğal etmişdilər, təxminən bir il sonra gəlib Bakını da ələ keçirmişdilər. Bu zaman əfqanlar artıq Səfəvilər dövlətinin xeyli hissəsini işğal etmişdilər. Ölkədə hərc-mərclik yaranmışdı. Səfəvilərin tanımadıqları 1723-cü il Sankt-Peterburq müqaviləsinə əsasən Səfəvi şahı, guya ki, Bakı, Gilan, Mazandaran, Astrabad ruslara verilirdi.

Qafqazda hakimiyyət uğrunda Qacarlar İranı, Osmanlı dövlətləri və Rusiya arasında bir neçə müharibə baş vermişdi. 1724-cü ildə Rusiya ilə Osmanlı dövləti arasında yeni bir müqavilə imzalanmışdı. Bu müqaviləyə əsasən Cənubi Qafqaz əslində Rusiya və osmanlılar arasında bölüşdürülmüş, İstanbul sarayı rusların Xəzəryanı işğallarını tanımış, ruslar isə qalan Güney Qafqazı osmanlılara «əta» etmişdilər. Rusiya və Səfəvilər dövləti arasında bağlanılmış 1732-ci il Rəşt müqaviləsinə əsasən iki dövlət arasında sərhəd xətti Kür çayı təyin olunmuşdu. Beləliklə, ruslar Kürdən cənubda işğal etdikləri əraziləri Səfəvilərə qaytarmalı olmuşdurlar. Rusiyada I Pyotrun ölümündən sonra, xüsusən də Azərbaycanda Nadir şahın hakimiyyətə gəlməsi ilə Rusiyanın cənuba doğru irəliləməsi bir müddət dayanmışdı.

Bu fəsildə həmçinin çar Rusiyası qoşunlarının komandanı Sisianovun Gəncəyə hücumundan geniş şəkildə bəhs olunur. Belə ki, Gəncə camaatı qüvvələrinin qeyri-bərabərliyinə baxmayaraq təpədən-dırnağadək silahlanmış rus ordusu qarşısında mərdanəliklə müqavimət göstərdi. Şəhər çox ciddi müqavimətdən sonra 1218-ci ildə şəvval ayında (1804-cü ilin yanvarın 2-dən 3-nə keçən gecə) süqut etdi. Ruslar şəhərə daxil olan kimi əhalini qarət etdilər, qətllər baş alıb getdi. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Cavad xan və onun oğlu Ruben və Mikayıl adlı iki erməni tərəfindən öldürüldülər, onun iki oğlunun mülkləri də qarət edildi. Cavad xan öldürüldükdən sonra rus ordusu gürcülər və ermənilərlə birlikdə şəhəri üç gün ərzində talan etdilər. Cavad xana xəyanət edən adamlardan biri onun yaxınlarından olan Nəsib bəy Şəmşəddinli idi. Bəzi farsdilli qaynaqlara görə erməni keşişləri Aram, Ruben və Mikayılın da Cavad xanın qətlində əlləri olmuşdu.

Əslində onların özləri rusların şəhərə daxil olmasına bələdçilik etmişlər, onları istiqamətləndirmişlər.[1] Bundan sonra ermənilərin xaincəsinə köməyi ilə Sisianov İrəvanı işğal etmək fikrinə düşdü. Lakin bütün dəstələr Qacarlar İranı ordusu tərəfindən məğlub edildi. İş o yerə çatdı ki, ruslar atların və sair heyvanların azuqəsini, ətini yeyirdilər. Onlar gecə vaxtı İrəvandan Tiflisə doğru qaçdılar. Sisianovun İrəvan ətrafından qaçması Qacar ordusunun onları təqib etməsinə səbəb oldu. Bu zaman da fərarilərin çoxu öldürüldü və yaralandılar. Başdan-başa şücaət və qəhrəmanlıq dolu bu əməliyyatdan sonra yenə də Məhəmməd xan İrəvanın hakimi təyin olundu.[2] Georgi xanın oğlu Naxçıvana ezam olundu. İsmayıl xan Şəmbəyati əhalinin tələbi ilə Xoya hakim təyin olundu. Bu hərbi əməliyyatlar həm də onu göstərirdi ki, yerli əhalinin böyük əksəriyyəti Qacar ordularını müdafiə edir. Elə həmin səbəbə görə yerli tayfalar və qəbilələr, xüsusi ilə Dağıstan dağlıları hər yerdə Qacar silahlı qüvvələrini müşayiət edir, ruslar əleyhinə vuruşmalarda köməklik göstərirdilər. Lakin sonralar yerli hakimlər arasındakı bəzi ziddiyyətlər, bəzi xanların uzaq görməyən siyasəti, rusların hərbi üstünlüyü və yerli ziddiyyətlərdən bacarıqla istifadə etmələri bu dövrün hərbi kampaniyasının onların xeyrinə başa çatmasına gətirib çıxardı. Fəslin sonuncu IV yarımfəslində qeyd edilir ki, belə epizodik qələbələrə baxmayaraq bütövlükdə müharibənin uduzulması, Qacarların ruslara qarşı müharibədə məğlub olması qüvvələrin qeyri-bərabərliyi, Azərbaycan xanları arasında birliyin olmaması ilə yanaşı regiondan kənarda olan bir sıra amillərlə - İngiltərə, Fransa imperiyasının ikiüzlü, məqsədyönlü siyasətləri ilə də bağlı olmuşdur. Həmçinin ermənilərin xəyanəti də bu məsələdə mühüm əhəmiyyətə malik olmuşdur. Bu məğlubiyyət gənc Qacarlar səltənətinin beynəlxalq nüfuzu üçün ağır zərbə oldu. Tehran hökuməti Cənubi Qafqaz və o cümlədən Şimali Azərbaycanda ciddi itkilərə məruz qaldı.

Dissertasiyanın **«İran-Rusiya müharibəsinin ikinci dövrü»** adlanan ikinci fəsli beş yarımfəsildən ibarət olub 1826-1828-ci illər Rusiya – Qacar müharibəsinin qanlı vuruşmalarını və nəhayət, ingilislərin vasitəçiliyi ilə Türkmənçay sülh müqaviləsinin bağlanmasını özündə əks etdirir.

Fəslin "İkinci İran-Rusiya müharibəsinin başlanmasına qısa bir nəzər" adlı ilk yarımfəslində deyilir ki, Qafqaz bölgələrinin Rusiya hakimiyyəti altına keçməsi Qafqazda və Qacarlar tərəfində xeyli narazılıqlar yaratmışdı. Həmin bu vaxtlar Yermolov Rusiyanın Qafqazdakı bütün silahlı qüvvələrinin baş komandanı təyin olunmuşdu. O, Gürcüstanda fəaliyyətə başlayan-

---

[1] İranın hərbi tarixi.

[2] Eşqi Xanək. Rusiyanın İranda hərbi siyasəti, Tehran Universitetinin nəşriyyatı 1353-cü il (1974-cü il).

dan müəyyən müddətdən sonra hətta Azərbaycan dilini öyrənmək üçün ciddi cəhdlər göstərirdi. O, Tehrana gələndə yerli xanlarla özünün ilk görüşündə özünü iranlıların dostu kimi təqdim edirdi. Yermolov Qafqaza gəlişindən bir müddət sonra böyük bir səfirlik heyəti ilə Tehrana səfər etdi, əvvəlcə Əsgər xan Əfşar Əriminin müşayiəti ilə Təbrizə daxil oldu. Birinci Qaimməqamın vasitəsi ilə Abbas Mirzəyə təqdim olundu. O, Naib əl-Səltənənin qəbulunda olarkən iki dövlət arasında davamlı sülhdən danışsa da Abbas Mirzə Gülüstan sülhündən razı olmadığı üçün, o qəlbində Abbas Mirzəyə qarşı dərin kin bəsləyirdi. Bir qədər sonra A.P.Yermolov şah ilə də görüşdü. Şah Gülüstan sülhü bağlanandan 5 il sonra Tehrandan hərəkət edib 7 şəban 1232-ci ildə (1818-ci il) Çəmənə gəlmişdi. Dissertasiyanın bu fəslində qeyd edilir ki, İran-Rusiya müharibəsinin ikinci mərhələsi müharibə rəsmən elan olunmadan başlanmışdı. Rəsmi rus və sovet tarixşünaslığı bunun səbəbini Abbas Mirzənin müdaxiləsi ilə əlaqələndirirlər. Əslində isə ruslar özləri də diyarda işğal etdikləri ərazilərlə razılaşmırdılar, kifayətlənmirdilər. Onlar başqa ərazilər, o cümlədən Göycəyə də hücum etdilər və oranı tutdular. Şiə üləmaları ruslar əleyhinə cihad elan etdilər və əldən getmiş ərazilərin geri qaytarılması tələbləri ilə üçün dövlətə təzyiq göstərməyə başladılar. Abbas Mirzə yaranmış siyasi atmosferdən istifadə edərək rus qoşunlarının üzərinə hücum etmək üçün şahdan 25 iyun 1826-cı ildə göstəriş almağa nail oldu. Lənkəran və Muğan Qacar ordusu tərəfindən ruslardan azad olundu. Şuşa qalası mühasirəyə alındı. Həmin vaxt Gəncədə xalq üsyan qaldırdı. Şəhərdəki rus qarnizonu Gəncə əhalisi tərəfindən məhv edildi. Cavad xanın oğlu Uğurlu xan şəhərə asanlıqla daxil olub xan taxtına oturdu. Bu üsyan Qafqazın bütün müsəlmanlar yaşayan ərazilərinə sirayət etdi. Qacar ordusu və üsyançılar Gülüstan sülh müqaviləsinə əsasən rusların qamarladıqları əraziləri, o cümlədən Bakı, Şəki, Şirvanı, Gəncə və başqa yerlərin xeyli hissəsini yerli əhalinin köməyi ilə azad etdilər[1]. Şuşa şəhəri də Abbas Mirzənin qoşunu tərəfindən mühasirə alındı. Bu surətli və sürəkli uğurlar Qacar hakim dairələrin böyük sevincinə səbəb oldu. Fətəli şahın ruslarla müharibədə acı təcrübəsi olduğundan ona nəsib olan fəthlərdən istifadə etmək qərarına gəldi və tez bir zamanda ruslarla sülh yaratmağa çalışdı. Buna görə də o, 1826-cı ilin avqust ayında erməni Mirzə Davud xanı fövqəladə səfir statusunda Sankt-Peterburqa göndərdi ki, sülh müzakirələri üçün zəmin yaratsın. Amma general Yermolovun onun Qafqazdan keçməsinə maneçilik etdiyi üçün Mirzə Davud xan Osmanlı dövləti və Polşa ərazisi ilə oraya yola düşdü. Ruslar təbii ki, az qala onillik müharibə yolu və

[1] Şeybani Mirzə İbrahim. Tarix müntəxəbatı «Elmi nəşriyyat». Tehran: 1358-ci il (1979)

çox böyük itkilər hesabına qamarladıqları Cənubi Qafqazdan, ilk növbədə də Quzey Azərbaycan torpaqlarından belə asanlıqla əl çəkmək fikrində deyildilər. Rusiya komandanlığının gördüyü təcili və fövqəladə tədbirlər nəticəsində strateji təşəbbüs dönmədən rusların əlinə keçməyə başlamışdı.

Hələ müharibənin başlanmasından bir neçə il əvvəl – 1235-ci ilin əvvəllərində (1820-ci il) bölgədə çox ciddi hadisələr baş verirdi. Gülüstan sülh müqaviləsindən sonra ruslar tədricən öz-adət ənənələrini və ictimai qaydalarını region xalqlarına qəbul etdirirdilərsə də, bunun müqabilində yerli əhali tərəfindən ara-sıra pərakəndə şəkildə işğalçılar əleyhinə silahlı xalq çıxışları və iğtişaşlar olurdu. Yermolov Qafqazdakı Rusiya qoşunlarının komandanı təyin olunandan sonra regionda ruslaşdırma daha da güclənməyə başlamışdı. Ruslar bunun müqabilində müxalifət edən hər bir kəsi öz ata-baba əcdadlarının torpaqlarından uzaqlaşdırırdılar. Lakin ən azı onlar xalqın adət-ənənəsini dəyişdirə bilmədilər. Bu zaman Qacarlara sığınmış üç nəfər – Surxay xan Qazıqumuxlu, Mustafa xan Şirvanlı və Mehdiqulu xan Cavanşir (hər üçü vaxtilə ruslar tərəfindən işğal olunmuş ərazilərdə şərti hakim olmuş, sonra ruslar tərəfindən müxtəlif yollarla hakimiyyətdən uzaqlaşdırılmış, Qacarlar səltənətinin himayəsində özlərinə sığınacaq tapmışdılar, Rusların düşməncəsinə rəftarından cana gəlmişdilər. Onlar daşınmaz əmlaklarını qoyub gecə yarısı öz ailələri ilə rusların işğal etdikləri ərazidən qaçıb Təbrizə Abbas Mirzənin yanına gəlmişdilər. Naib əl-Səltənə Abdulla xan Əmin əd-Dövləni onların problemlərini həll etmək, mallarını geri almaq üçün bir dəstə ilə rus komandirlərinin yanına göndərmişdi. Amma ruslar bu xanların mallarını qaytarmağa razı olmamışdılar. Ruhanilər İran dövlət sarayını da müharibəyə «razı salandan» sonra özlərindən bir qrup adamı Rusiyaya qarşı cihad elan etmək üçün Nəcəfdən Tehrana göndərdilər. Bu heyət yol boyu xalqın görünməmiş səmimiyyəti ilə üzləşdi. Onlar gəlmişdilər ki, Rusiyanın müsəlman xalqlarının namusuna uzatdığı təcavüzkarlıq əlinə qarşı silahla cavab versinlər. Ruhanilər hansı bir yaşayış məntəqəsinə çatırdılarsa xalqın arasında vətənpərvərlik hislərinin necə geniş yayıldığını görür, onları Rusiyaya qarşı təşviq edirdilər. Onlar İranın müxtəlif bölgələrinə məktublar göndərir və xalqı cihada dəvət edirdilər. Müharibənin illik xərcləri 300 min tümən təşkil edirdi. Qacarlar Rusiya ilə müharibəyə tədarük görürdülər. Elə buna görə də Tehranda və Təbrizdə olan xarici dövlətlərin nümayəndələri əlbir olub təxribatla məşğul idilər.

Fəsildə bir daha qeyd edilir ki, 1813-cü ildə Gülüstan sülh müqaviləsi Qacarlarla çar Rusiyası arasında sərhədləri dəqiq təyin etməmişdi. İrəvan və Göyçə ərazisinin bir hissəsində Qacarların nüfuzu güclü şəkildə qalmaqda idi. Digər bir tərəfdən Qafqazın ruslara müqavimət göstərən müsəlman

əhalisi ruslar tərəfindən sürgün edilirdi. Şah rusların qaba müstəmləkəçilik siyasətindən bərk narazı idi. Rus müstəmləkəçi məmurlarının Qafqazın müsəlman xalqlarına qarşı pis rəftarından təngə gələn ruhanilər ruslardan yeni pis xəbərlərin gəlməsindən qəzəblənmişdilər. Gülüstan qərardadında sərhədlərin qəti təyin olunmaması və həmçinin rus qoşunu tərəfindən Qacar sərhədlərinin daim təcavüzə məruz qalması, rus hakimlərinin Qafqaz müsəlmanlarına zülm etməsi (bəzən bu zülm o qədər çox olurdu ki, əhali Qacar sarayına mühacirət edirdi) və Qafqaz müsəlmanlarının Qacarlar səltənətinə mühacirət etmələri İrana qarşı Rusiyanın təcavüzkar qüvvələrinin əleyhinə müharibənin ikinci ilinin islam cihadı haqqında hökm verilməsinə zəmin yaradırdı.[1]

Fəslin II və III yarımfəsillərində Qafqaz xalqlarının Rusiya ordularına qarşı mübarizəsi və 1826-1828-ci illər müharibəsinin ilk hərbi əməliyyatlarına həsr olunub. Burada bildirilir ki, Yermolovun yerinə Qafqazdakı Rusiya silahlı qüvvələrinin baş komandanı təyin olunmuş Paskeviç general Aristova əmr etmişdi ki, İrəvan qalasını işğal etsin. Bəzi qaynaqlar və müəlliflərin məlumatlarına görə Yermolov həm də ona görə çar tərəfindən işdən çıxarılmışdı ki, o, öz cinayətləri ilə xalqda Rusiyaya qarşı nifrət yaratmışdı. Hər halda Aristovun komandanlığı altında Sərdarabad yaxınlığında İrəvana tabe olan qüvvələrlə ruslar arasında döyüş başlandı. Bu döyüş yerli qüvvələrin Rusiya qoşunlarının üzərində qələbəsi ilə bitdi. Əhali özünü əzmlə müdafiə edirdi. Bu məğlubiyyətindən sonra Aristov Tiflisə doğru geri çəkildi. Ruslar İrəvanı və digər yerləri işğal etməkdə naümid idilər. Məğlub olmuş rus ordusu geri çəkildi ki, özünü gücləndirsin. Bundan sonra qərara alındı ki, Araz çayının sahilində və Naxçıvanın iki fərsəxliyində yerləşən Abbasabad adlı məntəqəyə hücum edilsin.[2]

Fəslin IV yarımfəslində təşəbbüsün Rusiyanın əlinə keçməsindən, sonuncu sonuncu yarımfəslində isə müharibənin nəticələrindən söhbət açılır. Qeyd edilir ki, hərbi əməliyyatların davam etdirilməsi nəticəsində Qacar ordusunun dağılmış hissələrinin bir hissəsi məhv edildi. Gecə vaxtı rus komandanı artıq Abbasabada gəldi. Ehsan xan Qacar komandirlərinə israr etdi ki, Naib əl-Səltənə tərəfindən kömək gəlmişdi, qalanın qapılarını açın. Şahın yeznəsi Məhəmməd Əmin xan Xanduvanlı və bəxtiyarilərin komandiri Abbas xan bu macəradan xəbərsiz idilər və qapıları açdılar. Ruslar heç bir

---

[1] Bax: Riyahi Məhəmməd Əmin. Əmir xan Sərdarın hesabatları // Tarixi araşdırmalar, №1, 13-cü il.

[2] Bax: Əksire-ət-Təvarix. Ələvi Şirazi Məhəmməd Hadi. Mirzə Əbülhəsən Şirazinin Rusiyaya səfərnaməsi, Məhəmməd Gülbənin tədqiqi, Donyaye kitab nəşriyyatı, 1363-cü il (1984-cü il).

problem olmadan möhkəmlənmiş Abbasabad qalasına daxil oldular. Abbasabad qalasını tutdular. Dərhal şahın yeznəsini və bəxtiyarilərin komandirini həbs edib Tiflisə göndərdilər. Zahirən Ehsan xanın xəyanəti bu idi ki, onun atası Sübhanullah xan ruslarla əlbir olduğu üçün şah tərəfindən kor edilmişdi və Abbasabad qalasında yaşayırdı. Paskeviç onu nəvazişlə qarşıladı. Ruslar tələb etdilər ki, şahın yeznəsini azad etmək üçün İrəvan və Naxçıvan onlara verilsin və Rusiyanın hərbi xərcləri ödənilsin. Ruslar hədələyirdilər ki, əks halda Təbriz və Tehran işğal olunacaqdır. Onlar hətta Rusiyanın Abbasabad qalasında yerləşən ordusunun Qacarlar tərəfindən ərzaqla təmin edilməsini tələb edirdilər.[1] Ruslar razılaşırdılar ki, Talış və Muğanı İrana qaytarsınlar, əvəzində isə İrəvanı tutsunlar. Belə manevrlərlə Qacarlar rəhbərliyinin başını qatan ruslar tezliklə öz hücumlarını davam etdirərək Sərdarabad qalasını tutdular. Həmişə müharibə zamanı canından keçən və öndə olan Həsən xan Sarı Aslan bu dəfə Şahın etinasızlığından bərk qəzəblənmişdi. Çünki, hər il onun Azərbaycanı tərk etməsindən, rahatlığını hər şeydən üstün tutmasından və Fətəli şahın cəbhəni buraxmasından qəzəblənirdi. O, iki gün müqavimətdən sonra Paskeviçlə qarşı-qarşı durmaqdan yorulub, qəlbi kin-küdurət dolu qalanı tərk etdi. Gecə ikən xəlvətcə İrəvana tərəf getdi. Sonrakı gün ruslar qalanı rahatcasına tutdular və ləngimədən İrəvana doğru hərəkət etdilər. İrəvan şəhəri və qalası Cənubi Qafqazda yeganə yer idi ki, ruslar hələlik oraya daxil ola bilməmişdilər. Bu qala həmişə rusların cavabını layiqincə vermişdi. Bu dəfə də İrəvanda ruslar məğlub olurdular və bu vuruşmada onların bütün təchizatları məhv olunurdu. Rusların ordu başçıları bu məğlubiyyətlərdən başlarını itirmişdilər. Həsən xan Sarı Aslan Qarakilsədə 1000 nəfər rusla qarşılaşdı, altı gün döyüş getdi, amansız döyüşlərdən sonra nəhayət, yeddinci gün rus ordusu qalib gəldi. Bütün bunlar bir daha göstərir ki, şah sarayı və bütövlükdə Qacar imperiyasının rəhbərliyi müharibənin ümumi gedişatından ciddi problemlərin yarandığını düzgün qiymətləndirə bilmir, faktiki məhdud uğurlar, şişirdib, strateji təşəbbüsün əldən verilməsinin təhlükəli perspektivlərini görə bilmirdi.

Fəslin sonuncu yarımfəslində qeyd edilir ki, Naxçıvan, İrəvan, Təbriz kimi iri şəhərlərin itirilməsi ilə bitən məğlubiyyətlərdən Qacarlar İran ilə Rusiya dövləti arasında razılaşmaya gəlməyə məcbur oldu.[2] Bütövlükdə sülh danışıqları 1827-ci il oktyabr ayının ikinci yarısından başlamış və 1828-ci il fevral ayının 10-da Türkmənçay – Qacarlar üçün çox ağır olan, Azərbaycana saysız-hesabsız fəlakətlər gətirmiş sülh müqaviləsinin imza-

[1] Bax: Musəvi Nami İsfahani. Mirzə Məhəmməd Sadıq, Ölkələr fəthinin tarixi. Səid Nəfisinin tədqiqi. Tehran: 1366-cı il (1987-ci il).
[2] Əfşar Nasir Mirzə Əfzəl Şirazi. Tarixi Zülqərneyn. Tehran: 1378.

lanması ilə nəticələndi.[1]

Bu sülh müqaviləsi bir müqəddimədən, on altı fəsildən, doqquz paraqrafdan və bir ticarət müqaviləsi əlavəsindən ibarət idi. Bu müqavilə 1828-ci il fevral ayının 10-da çar Rusiyası və Qacarlar İranı dövlətlərinin nümayəndələri tərəfindən imzalandı. Məlumdur ki, bu müqavilədə çar Rusiyası öz işğalçı niyyət və məqsədlərini açıq-aşkar göstərdi və Rusiya dövlətinin elə bir xeyri bu oldu ki, Avropa müharibələrində belə bir xeyir əldə etməmişdi. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən çar Rusiyası Qafqaz vilayətlərinə malik olmaqla yanaşı Muğan ovalığının bir hissəsini də ələ keçirdi. Araz çayı hər iki dövlət arasında sərhəd oldu. Rusiya təbəələri İranda hüquqi qanunların təsirindən və xüsusən də cəzalardan azad oldular. Kapitulyasiya rejimi, yəni konsulluq qəzavəti tətbiq olundu. Xəzər dənizində hərbi gəmiçilik çar Rusiyasının inhisarında qaldı. Qafqazda İranın hərbi qalalarında mövcud olan hərbi və döyüş sursatını, topunu-tüfəngini ələ keçirdi, beş milyon tümən müharibə qəraməti aldı.[2] Beləliklə, 1828-ci il Türkmənçay müqaviləsi Fətəli şahın zamanında çar Rusiyasının diktəsi ilə bağlandı. Çar Rusiyası nəinki əvvəllər işğal etdiyi yad ölkəyə məxsus əraziləri geri qaytarmadı, əksinə yeni, çox mühüm strateji əhəmiyyətə malik əraziləri də işğal etdi. Türkmənçay müqaviləsinin imzalanması ilə Qacarlar İranının iqtisadi və siyasi istiqlaliyyətinə ağır zərbə vuruldu. Həqiqətdə bu müqavilə Qacarlar səltənətinin qüdrətinin və nüfuzunun xeyli zəifləməsinə səbəb oldu. Digər tərəfdən isə bu məğlubiyyəti müqavilə Avropanın hakim dairələrinin İrana qarşı nüfuzunun və müdaxiləsinin artmasına zəmin yarandı.

Dissertasiyanın üç yarımfəsildən ibarət sonuncu – üçüncü fəsli **“XIX əsrin I sülsünün müharibələri dövrü və bu müharibələrdən sonra Qacarlar – Rusiya siyasi əlaqələri”** adlanır. Bu fəsildə beynəlxalq siyasətin incəliklərini yaxşı bilən, o cümlədən rusların Azərbaycan ərazisində və Orta Asiyada irəliləməsini həmişə özlərinin mənafeyinə zidd olduğunu sanan və rusların rəqibi hesab olunan ingilislərin I Pyotrun vəsiyyətnaməsinin baş tutmasına qarşı mülayim, qətiyyətsiz və kəsərsiz siyasət yeritmələrindən bəhs olunur. İngiltərə Rusiya-Qacarlar arasında mövcud olan münasib əlaqələrin aradan qaldırılması üçün əlindən gələni əsirgəmirdi.

Qeyd etdiyimiz kimi, XIX əsrin ilk üç on illiyində İranla Rusiya arasında qanlı müharibələr baş verdi. Bu dövrdə bütövlükdə dünyada çox ciddi və qlobal dəyişikliklər baş verir, bütün bunlar isə bu dövrədək mövcud olmuş

---

[1] Nayebiyan Cəlil. İranın Qacarlar dövründə xarici dövlətlərlə əlaqələri. Tehran: 1373-cü il (1994-cü il).

[2] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: 2010.

keçmiş siyasi-diplomatik əlaqələrin də xeyli dərəcədə dəyişikliklərə məruz qalmasına gətirib çıxarmışdı. Yeni təşəkkül tapmış beynəlxalq ideyalarının fonunda iqtisadi maraqlar yeni siyasi məsələlərin yaranmasına səbəb olurdu. Siyasi əlaqələr və maraqların isə bir çoxu milli mənafe və ölkələrin iqtisadi qüdrəti əsasında formalaşırdı. Bu baxımdan Qacarlar İranında olan vəziyyət də istisna təşkil edə bilmirdi.

Bu zaman İran adı altında başa düşülən çox böyük coğrafi ərazidə hökmran olan Azərbaycanda türk sülaləsi – Qacarlar səltənətinin də dövlət hakimiyyəti mövcud forması və strukturu baxımından qəbilə-tayfa münasibətlərinə söykənirdi. Çox təəssüflər olsun ki, bu dövrdə həmin səltənətin regional və beynəlxalq dəyişikliklər haqqında əldə lazım və gərəkli olduğu qədər məlumat yox idi. Qəribə görünsə də məhz bu zaman ölkə daxilində islahatlar aparılması üçün ən münasib bir vaxt idi. Lakin əksinə Qacarlar Rusiya ilə üzücü, uzunmüddətli müharibələrə düçar olmuşdu. Ölkənin geri qalmasına səbəb olan yerli, milli sistem ona özünü Böyük Fransa inqilabı və İngiltərədə baş verən sənaye inqilabı ilə ahəngləşdirməyə imkan vermirdi. Hətta müharibələri dələngitməyə belə imkan olmurdu. Əlbəttə, Fransa, İngiltərə kimi ağalığa can atan dövlətlər dünyanı bölüşdürmək üstündə və geridə qalmış ölkələrin böyük və zəngin təbii ehtiyat mənbələrini ələ keçirmək üstündə rəqabət aparırdılar. Qacarlar səltənəti də hər bir Avropa cahangirinin mavi arzusu olan Hindistanın yolunun darvazası idi. Ona görə də Qacarlar istər-istəməz bu ciddi qarşıdurmaların siyasi dairəsinə çəkilirdi. Təbii ki, Rusiya dövləti Avropa dövlətləri ilə müqayisədə geridə qalmış bir ölkə idi feodal üsul-idarəsi ilə idarə olunur və bir feodalizm ölkəsi hesab edilirdi. Qacarlar İranı isə bu zaman hər üç ölkə - Rusiya, İngiltərə və Fransa dövlətləri, Sankt-Peterburq, London və Paris hakimləri tərəfindən bir növ mənfur aldadıcı, hiyləgər siyasətlə üzləşmişdi. Rusiya-Qacar müharibələri dövrünə aid tarixi sənədlərdə Rusiyanın Cənubi Qafqazda mütləq hakimiyyətə yiyələnmək istəkləri haqqında geniş və mötəbər məlumatlar var. Rusiyanın Qacarlarla sərhədi 100 kilometrlərlə uzanırdı. Şimaldan Rusiya Qacarlara ciddi təhlükə yaradırdı. Onun Xəzər dənizində ağalığı bu ciddi təhlükəni daha da gücləndirirdi. Bu isə öz növbəsində Xəzər dənizinin cənubunda yerləşən İranın şimal bölgələrinə və hətta səltənətin paytaxtına güc tətbiq etməyə ruslar üçün yaxşı imkanlar verirdi. Bununla yanaşı Rusiyanın İranın şimalındakı iqtisadi üstünlüyü də inkar edilə bilməzdi. Çünki bu üstünlük həm də siyasi-iqtisadi amil idi. Rusiya özünün davamlı, cəsarətli tədbirlərini həm müharibələrlə, həm də diplomatiya ilə həyata keçirirdi. O, Qacarların siyasi əlaqələrində də böyük üstünlük əldə etməyə nail olmuşdu. Rusiya çarı ilə Qacar şahı arasında XIX əsrin birinci

otuz illiyindəki əlaqələrdə elə bir dövrü tapmaq olmaz ki, bu əlaqələrdə təşəbbüs Şimal qonşusunun - Rusiyanın əlində olmasın. Bu məqamda nəzərə çatdırmaq istəyirik ki, XIX əsrin I sülsünün diplomatik batalyonlarına Rusiya və sovet tarixşünaslığının münasibəti ilə farsdilli tarixşünaslığın münasibəti bir-birindən ciddi surətdə fərqlənir. Rusiya və sovet tarixşünaslığı birtərəfli mövqedə dayanaraq çarizmin siyasətini birmənalı dəstəkləyib ingilis və fransız diplomatiyasının hər şeydə suçlayırdısa, farsdilli tarixşünaslıq bundan heç də az olmayan birtərəfli mövqe tutaraq əsasən hər şeydə Qacar xarici siyasətini dəstəkləyir, lakin bunu daha bəsit və rəvayətvari bir tərzdə yerinə yetirir, öz müddəa və nəticələrini inandırıcı tutarlarla əsaslandırmırdı. Lakin bu da faktdır ki, Qacarlar səltənətində çox az bir qisim adam islahat tərəfdarı idi. Lakin onların da islahat haqqında aydın təsəvvürləri yox idi. Onlar yaşadıqları mühitə heç bir ciddi nəzər salmadan Avropa ölkələrinin üstünlüyünü sadəcə qəbul edirdilər. Bütün bunlarla belə Abbas Mirzə çalışırdı ki, ölkədə ciddi qanunlar qoyulsun. Lakin dövlət və hakimiyyət daxilində mürtəce düşüncəli ünsürlərin müqaviməti, Avropa dövlətlərinin müstəmləkəçi siyasətləri bu tədbirlərin həyata keçirilməsinə imkan vermədi. Böyük dövlətlər Abbas Mirzəni həyatının son günlərinədək onu qonşularla müharibə etməyə təşviq edir, onun xaricə oxumağa göndərdiyi tələbələr arasında da belə təbliğat aparılırdı. İran-Rusiya müharibələrinin birinci dövrü başa çatdıqdan sonra islahatlar üçün imkan yaranan bir zamanda Qacar səltənəti Osmanlı imperiyası ilə müharibəyə sövq edildi, sonra isə İran-Rusiya müharibəsinin ikinci dövrü başlandı. Müharibə qurtarandan sonra ta Abbas Mirzənin ölümünədək ölkənin bütün varı-yoxu müharibə xəsarətlərinin və qəramətinin ödənilməsinə, daxili üsyanların yatırılmasına və Herata qoşun çəkilməsinə sərf olundu. Ciddi islahatların aparılması üçün zəruri olan qüdrət və mənbələr məhv edildi. Ruslar mənfur öz məqsədlərinə çatmaq üçün İranda min bir fırıldaqdan çıxırdılar. Britaniya da Herat üsyançılarına kömək edirdi, hər iki dövlətin məqsədi İranda islahatları beşikdə boğmaq idi.

Bütün bu olanlara baxmayaraq dünya tarixşünaslığında "İran Napoleonu" kimi qiymətləndirilən bu görkəmli Azərbaycan dövlət xadimi, istedadlı Azərbaycan-türk sərkərdəsi – Abbas Mirzənin islahatçı fikirləri və düşüncələri Qacar cəmiyyətinin bəzi dövlət dairələrində və ziyalılar arasında müəyyən köklər saldı. Bunun özü də böyük uğur farsdilli tarixşünaslıq XIX əsrin ilk sülsündə baş vermiş Qacar-rus müharibələrində Qacarlar səltənətinin başlıca itkiləri sırasında haqlı olaraq Quzey Azərbaycanın romanovlar imperiyası tərəfindən işğalını görürdülər. Belə ki, farsdilli müəlliflərin çox böyük əksəriyyəti Quzey Azərbaycanın az qala Qacarlar səltənətinin daxili

mülkü sayırdılar. Lakin Şimali Azərbaycan tarixşünaslığı bunu qətiyyən belə olmadığını çoxdan sübut edib. XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının çox böyük əksəriyyəti tam müstəqil dövlətlər idi. Onların Qacarlar səltənəti ilə sıx əlaqələri sadəcə olaraq. Həm də onların arasındakı dil, din və etnik eynilikdən və bir sıra digər amillərdən (ümumi düşmənlər, ərazi yaxınlığı və s.) irəli gəlirdi. Və bu müharibələrin ən ağır və fəsadlı nəticəsi məhz Rusiyanın Azərbaycanda iki yüzillik müstəmləkə əsarətinin bünövrəsini qoymuş rus işğalı oldu.

Beləliklə də, aparılmış tədqiqatlar göstərdi ki, XIX əsrin ilk sülsündə bir neçə qitənin qovşağında yerləşən Ön Asiyanın mühüm bölgələrindən biri olan Cənubi Qafqaz, o cümlədən Azərbaycanda baş vermiş son dərəcə genişmiqyaslı hərbi-siyasi proseslər bütöv bir sıra ölkələrin tarixşünaslığı kimi, farsdilli tarixşünaslığın da diqqətini yaxından və güclü şəklində çəkmiş problemlərdən biri olmuşdur. Həm həmin hadisələrin şahidi olmuş, həm də sonrakı dövrlərdə yaşayıb-yaratmış farsdilli müəlliflərin mühüm bir hissəsi ya XIX əsrin ilk otuzilliyində baş vermiş Rusiya-İran müharibələrini öz tədqiqatlarının əsas mövzusu seçmiş, ya da başqa problemin tədqiqi və təsviri əsnasında bizi maraqlandıran məsələlərə toxunmuş, onlara öz spesifik münasibətlərini bildirməyə cəhdlər göstərmişlər.

Dissertasiyanın «Nəticə» hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. İran-Rusiya müharibəsi tarixinin farsdilli tarixşünaslıqda işıqlandırılmasına dair // Pedaqoji Universitet Xəbərləri. Humanitar elmlər bölməsi. Bakı: 2014, №4, s.153-157.
2. İran-Rusiya müharibələri farsdilli tarixşünaslıqda // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı: №2, 2015, s.331.
3. Historical events in Iranian-Russian war reflected by Iranians // Кавказ и Мир. Международный научный журнал. Тбилиси: 2015, №19, с.26.
4. Русско-Иранская война в период правления Каджаров // Кавказ и Мир. Международный научный журнал. Тбилиси: 2015, №20, с.58.
5. Русско-Иранская война в период правления Каджаров // Національный Педагогічный Університет імені М.П.Драгоманова. ВГО Украинська Академия Наук. Гілея. Науковий вісник. Кіев: 2015, №5, с.184-187.
6. The possibility or refusal of Abbas Mirza's reformative ideas in Iran society // Humanities and Social Sciences, 2015, vol. 8(4) 502-512.
7. Abbas Mirza and Modernity in Iran // gmp review. 2015, V.18(1), s.416-420.

*Habib Shiri Azer*

# RUSSO-IRAN WARS IN THE PERIOD OF THE KAJARS (based on Persian-language sources)

## SUMMARY

In the dissertation, attempt was made to comprehensively highlight the causes, course, main milestones and consequences of the Russo-Kajars wars of the first third of the nineteenth century.

The urgency of developing this problem is primarily lies in the fact that discussed in this paper issues for long decades were developed at first from the point of view of the interests of the ruling circles of tsarist Russia and then the communist regime.

In this study, the author using own capabilities drawing on Persian-language sources and literature, much of which until recently was unavailable (for various reasons) to researchers of national history, widely views the cause, the course and the results of the Russo-Kajars wars of 1804-1813 and 1826-1828. It is notable that it emphasizes the tendentiousness of Persian-speaking authors, as well as the significance of factual materials, inaccessible sources preserved in the works of these authors.

In this dissertation the role of individual military and political figures of the Kajar regime, especially the activities of the prominent Azerbaijani commander – "Iranian Napoleon" Abbas Mirza Qajar was also widely studied by the author, and an attempt was made to objectively assess the unseemly role of Western European diplomacy, especially Britain and France.

The reasons for the defeat of the Kajar regime, the destructive consequences of military clashes on the socio-economic and socio-political life of Azerbaijan and Iran are noted.

*Габиб Шири Азер*

# ИРАНО-РОССИЙСКИЕ ВОЙНЫ В ПЕРИОД КАДЖАРОВ (на основе персоязычных источников)

## РЕЗЮМЕ

В представленной к защите диссертации предпринята всесторонняя попытка осветить причины, ход, основные вехи и главные последствия каджаро-российских войн первой трети XIX столетия.

Актуальность разработки данной проблемы в первую очередь заключается в том, что в течение долгих десятилетий рассматриваемые в данной работе вопросы разрабатывались с точки зрения сначала интересов правящих кругов царской России, а затем советского режима.

В данном исследовании, автор, используя свои возможности, привлекая персоязычные источники и литературы, значительная часть которых до недавнего времени были недоступна (в силу различных причин) исследователям отечественной истории, широко рассматривает причину, ход и результаты Ирано-российских войн 1804-1813 и 1826-1828 гг. Примечательно, что здесь особо подчёркивается как тенденциозность персоязычных авторов, так и значение фактических материалов, малодоступных источников сохранившихся в работах этих авторов.

В данной диссертации автором широко исследована роль отдельных военно-политических деятелей каджарского режима, особенно деятельность видного азербайджанского полководца – «Иранского Наполеона» Аббаса Мирзы Каджара. В работе а также предпринята попытка объективно оценить неблаговидную роль западноевропейской дипломатии, особенно Великобритании и Франции.

Здесь отмечаются причины поражения каджарского режима, губительные последствия военных столкновений в социально-экономической и общественно-политической жизни Азербайджана и Ирана.

Əla növ kağız, formatı 60x84 – $^{1}/_{16}$
Tirajı 100 nüsxə
"Turxan" NPM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГАБИБ ШИРИ АЗЕР**

# ИРАНО-РОССИЙСКИЕ ВОЙНЫ В ПЕРИОД КАДЖАРОВ (на основе персоязычных источников)

Специальность: 5503.02 – Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку – 2017**